**Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi və Mərakeş Krallığının İqtisadi İnkluzivlik, Kiçik Biznes, Məşğulluq və Bacarıqlar Nazirliyi arasında əməkdaşlıq haqqında Anlaşma Memorandumu**

Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi ilə Mərakeş Krallığının İqtisadi İnkluzivlik, Kiçik Biznes, Məşğulluq və Bacarıqlar Nazirliyi (bundan sonra "İmza edənlər" adlandırılacaq),

- iki ölkə arasında əmək və məşğulluq sahələrində fəal əlaqələr yaratmaq və inkişaf etdirmək niyyətlərini ifadə edərək,

- dostluq və əməkdaşlıq əlaqələrinin gücləndirilməsini arzulayaraq,

- iki ölkənin ortaq istəklərinə xidmət edəcək bu əməkdaşlığın inkişaf etdirilməsinin zəruriliyini nəzərə alaraq,

aşağıdakılar barədə razılığa gəldilər:

**Paraqraf 1**

İmza edənlər öz səlahiyyətləri çərçivəsində və milli qanunvericiliklərinə uyğun olaraq aşağıdakı sahələrdə birgə təşəbbüsləri həyata keçirərək əməkdaşlıq edirlər:

1. əmək qanunvericiliyinin tətbiqinin monitorinqi;
2. əməyin təhlükəsizliyi və sağlamlığı;
3. əmək mübahisələrinin həlli və kollektiv sövdələşmə;
4. işsiz, işaxtaran şəxslər, qadınlar və sosial baxımdan həssas əhali qruplarının məşğulluq imkanlarının, o cümlədən, gənclərin məşğulluğunun artırılmasına yönəldilmiş əmək bazarı siyasətlərinin hazırlanması;
5. məşğulluq xidməti mərkəzlərinin fəaliyyətinin təkmilləşdirilməsi, məşğulluq xidmətlərinin keyfiyyətlərinin yaxşılaşdırılması;
6. işçi qüvvəsinin keyfiyyətinin yaxşılaşdırılması, əmək bazarında kvalifikasiyaların artırılması.

**Paraqraf 2**

İmza edənlər aşağıdakı formalarda əməkdaşlıq edirlər:

1. əmək və məşğulluq sahələrində hər iki ölkənin təcrübəsinin öyrənilməsi məqsədilə ekspert və təlimçilərin səfərlərinin təşkil olunması;
2. əmək və məşğulluq sahələrində qanunvericilik sənədlərinin və analitik materialların mübadiləsi;
3. beynəlxalq forumlarda qarşılıqlı maraq doğuran məsələlər üzrə birgə mövqeyin razılaşdırılması.

**Paraqraf 3**

Bu Anlaşma Memorandumunun icra olunması məqsədilə İmza edənlər Texniki Komitə yaradırlar. Komitənin vəzifələri aşağıdakılardır:

1. illik proqramların hazırlanması;
2. proqramların həyata keçirilməsi metodlarının, xüsusilə də razılaşdırılmış layihələrin maliyyələşmə mənbələri və razılaşdırılmış layihələrin icra mexanizmlərinin müəyyənləşdirilməsi;
3. bu layihələrin həyata keçirilməsinin monitorinqi;
4. nəticələrin qiymətləndirilməsi.

**Paraqraf 4**

Hər bir İmza edən bu Anlaşma Memorandumunun həyata keçirilməsi ilə bağlı xərclərini öz üzərinə götürür.

Bu Anlaşma Memorandumu çərçivəsində nümayəndə heyəti və ekspertlərin səfərlərinin xərcləri göndərən İmza edənin hesabına və müvafiq milli qanunvericiliyin müddəalarına uyğun həyata keçirilir.

**Paraqraf 5**

Bu Anlaşma Memorandumunun icrasının əlaqələndirilməsi üzrə İmza edənlərin cavabdeh qurumları aşağıdakılardır:

1. Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən – Beynəlxalq əlaqələr şöbəsi;
2. Mərakeş Krallığının İqtisadi İnkluzivlik, Kiçik Biznes, Məşğulluq və Bacarıqlar Nazirliyi tərəfindən - Beynəlxalq Əməkdaşlıq və Tərəfdaşlıq Direktorluğu.

**Paraqraf 6**

İmza edənlərin qarşılıqlı razılığı ilə bu Anlaşma Memorandumuna əlavə və dəyişikliklər edilə bilər. Belə əlavə və dəyişikliklər bu Anlaşma Memorandumunun ayrılmaz tərkib hissəsi olan və bu Anlaşma Memorandumunun 9-u Paraqrafının müddəalarına uyğun olaraq qüvvəyə minən ayrıca protokollar formasında edilir.

**Paraqraf 7**

Bu Anlaşma Memorandumu beynəlxalq müqavilə deyil və İmza edənlər üçün beynəlxalq hüquqla tənzimlənən heç bir hüquq və öhdəlik və ya maliyyə öhdəlikləri yaratmır.

**Paraqraf 8**

Bu Anlaşma Memorandumunun təfsiri və ya tətbiqi zamanı yarana biləcək hər hansı fikir ayrılığı İmza edənlər arasında danışıqlar və məsləhətləşmələr yolu ilə həll edilir.

**Paraqraf 9**

Bu Anlaşma Memorandumu imzalandığı tarixdən qüvvəyə minir və 5 (beş) il müddətinə qüvvədə qalır.

İmza edənlərdən biri bu Anlaşma Memorandumunun müddətinin bitməsinə ən azı 3 (üç) ay qalmış onu ləğv etmək niyyəti barədə yazılı şəkildə digər Tərəfə məlumat vermədiyi təqdirdə, Anlaşma Memorandumu avtomatik olaraq növbəti 5 (beş) illik müddətlərə uzadılır.

Rabat şəhərində, 13 noyabr 2023-cü il tarixində hər biri Azərbaycan, ərəb və ingilis dillərində olmaqla iki əsl nüsxədə imzalanmışdır, bütün mətnlər bərabər autentikdir. Bu Anlaşma Memorandumunun təsfiri zamanı fikir ayrılığı yarandığı təqdirdə ingilis dilindəki mətn üstünlük təşkil edir.